**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**
**UNEC**

# ELMİ ŞURA

**14 SENTYABR 2020-ci il**
**(online)**

# QƏRAR EŞ № 173

**SƏDRLİK ETMİŞDİR** **REKTOR PROF. Ə.C.MURADOV**

**ELMİ KATİB:** **Ə.Ə. Mustafayeva**

**İŞTİRAK ETMİŞDİR:** Universitetin Elmi Şurasının 43 üzvündən 43 üzvü

## E Ş İ D İ L D İ:

***UNEC rektorunun müşaviri dos. Elşən Bağırzadə***
*QAYDALAR haqqında*

## Q Ə R A R A A L I N D I:

1. Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) əməkdaşların unuversitetdaxili intizam Qaydaları;
2. Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) təhsilalanların universitetdaxili intizam Qaydaları təsdiq edilsin.
3. Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) əməkdaşlarının etik davranış Kodeksi;
4. Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) təhsilalanlarının etik davranış Kodeksi təsdiq edilsin.

**ELMİ ŞURANIN SƏDRİ** **PROF. Ə.C.MURADOV**

**ELMİ ŞURANIN KATİBİ** **Ə.Ə. Mustafayeva**

# AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİNDƏ (UNEC) ƏMƏKDAŞLARIN UNİVERSİTETDAXİLİ İNTİZAM

# Q A Y D A L A R I

## I. ÜMUMİ MÜDDƏALAR

**1.1.** "Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) Əməkdaşların Universitetdaxili İntizam Qaydaları" (bundan sonra - Qaydalar) Azərbaycan Dövlət İqtisad Universitetində (bundan sonra - UNEC) çalışan bütün əməkdaşların peşə fəaliyyəti zamanı ümumi davranışında, elm-tədqiqat və tədris prosesi iştirakçıları ilə real və virtual müstəvidə qarşılıqlı münasibətlərində yol verməməli olduğu intizam pozuntularını və müvafiq intizam məsuliyyətini müəyyən edən normalardan ibartədir.

**1.2.** Bu Qaydalar Azərbaycan Respublikasının Konstitusiyasına, "Əmək Məcəlləsi"nə, "Təhsil Haqqında" Qanununa, "Təhsil prosesi iştirakçılarının etik standartlar modeli"nə, "Müəllimlərin etik davranış qaydaları"na və UNEC Nizamnaməsinə uyğun hazırlanmışdır.

**1.3.** Bu Qaydaların tətbiqində əsas məqsəd UNEC-də sağlam işgüzar mühiti qorumaq, əmək və icra intizamını gücləndirməkdir.

**1.4.** İntizam qaydalarını pozanlara qarşı intizam tənbehi tədbirləri görülür.

## II. İŞ VAXTI VƏ ONDAN İSTİFADƏ EDİLMƏSİ

**2.1.** UNEC-də bir qayda olaraq gündəlik 8 saat və həftəlik 40 saat olmaqla, 5 günlük iş həftəsi tətbiq edilir.

**2.2.** Günlük iş vaxtı bir qayda olaraq, saat 09.00-da başlayır və 18.00-da bitir. 13.00-14.00 arası nahar fasiləsi üçün nəzərdə tutulur.

Zərurət yarandıqda, UNEC rəhbərliyinin müvafiq qərarı ilə ayrı-ayrı işçilər və işçi qrupları üçün işin başlanma və qurtama vaxtı, eləcə də nahar fasiləsinin vaxtı fərqli qrafik üzrə müəyyən edilə bilər.

**2.3.** İş başlanana qədər hər bir işçi özünün işə gəlməsini, iş günü qurtardıqda isə işdən getməsini universitetdə müəyyən edilən qaydada qeyd etməyə borcludur.

**2.4.** UNEC-də qanunvericiliklə nəzərdə tutulan müstəsna hallardan başqa, iş vaxtından artıq işləməyə bir qayda olaraq yol verilmir.

**2.5.** Məzuniyyətlərin verilməsi növbəliliyi UNEC-in işinin normal gedişinin və işçilərə istirahət üçün əlverişli şəraitin təmin edilməsi zərurəti nəzərə alınmaqla müəyyən edilir.

Məzuniyyətlərin qrafiki hər təqvim ilinin əvvəlində tərtib edilir və bu, işçilərin nəzərinə çatdırılır.

Professor-müəllim heyətinə illik əmək məzuniyyətləri bir qayda olaraq yay tətili dövründə verilir.

## III. ƏMƏK ŞƏRAİTİNİN TƏMİN EDİLMƏSİNİN ÜMUMİ QAYDALARI

**3.1.** UNEC-də dərslər müəyyən edilmiş qaydada səlahiyyətli orqanlar tərəfindən təsdiq edilən tədris standartları, tədris plan və proqramları əsasında hazırlanmış və təsdiq edilmiş dərs cədvəli üzrə həyata keçirilir.

**3.2.** Dərs cədvəli hər semestr üçün tərtib edilir və hər semestr başlamadan öncə müvafiq qaydada elan edilir.

**3.3.** Müəllim və tələbələrə hər bir dərsin başlanması və bitməsi haqqında məlumat zəng  və ya digər vasitələrlə bildirilir.

**3.4.** Dərslər arasında bir qayda olaraq fasilələr elan edilir.

**3.5.** Dərs başladıqdan sonra tələbələrin auditoriyaya girməsinə, yaxud auditoriyanı tərk etməsinə çox zəruri hallar istisna olmaqla, yol verilmir.

**3.7.** Dərslər başlandıqdan sonra bütün dərs otaqlarında dərslərin normal gedişi üçün zəruri olan sakitlik və digər müvafiq şərtlər təmin edilir.

Dərs zamanı auditoriyalarda mobil telefonlardan dərs məqsədləri xaricində istifadə edilməsinə yol verilmir.

**3.8.** Dərslər başlamadan öncə auditoriya, kabinet və labaratoriyalar müvafiq tədris-köməkçi heyət tərəfindən hazır vəziyyətə gətirilir.

**3.9.** UNEC-in müvafiq inzibati-təsərrüfat strukturları universitet binalarında zəruri səliqə-sahmanın yaradılmasını təmin edirlər.

**3.10.** UNEC-in inzibati-təsərrüfat və texniki xidmət strukturları universitetdəki maşın və avadanlıqların daim saz vəziyyətdə olmasını təmin edilər.

**3.11.** Dəhlizlərdə, kitabxana zallarında və digər ərazilərdə dərslərin gedişinə, kitabxana oxucularına və inzibati xidmət strukturlarına maneə yaradacaq səs-küyün salınmasına yol verilmir.

**3.12.** Universitet ərazilərini zibilləməyə və qadağan olunmuş yerlərdə siqaret çəkməyə yol verilmir.

**3.13.** UNEC rəhbərliyi tədris binalarının, avadanlığın, inventarların və digər əmlakın qorunmasını təmin edir.

Binanın və əmlakın qorunması, onların yanğın əleyhinə və sanitar vəziyyətinə görə məsuliyyəti UNEC rektorunun müvafiq əmri ilə müəyən edilmiş inzibati-təsərrüfat işçiləri daşıyır.

**3.14.** UNEC-də rəhbər işçilərin müvafiq qaydada qəbul saatları müəyyən edilir.

## IV. ƏMƏK VƏ İCRA İNTİZAMINA ƏMƏL EDİLMƏSİNƏ GÖRƏ FƏRQLƏNMİŞ İŞÇİLƏRİN MÜKAFATLANDIRILMASI

**4.1.** Əmək funksiyasının yüksək peşəkarlıq səviyyəsində yerinə yetirilməsində, universitetdaxili intizam qaydalarına əməl edilməsində fərqlənmiş işçilər Əmək Məcəlləsinin 185-ci maddəsinə uyğun olaraq, UNEC rəhbərliyi tərəfindən aşağıdakı formalarda mükafatlandırılır:

- pul və ya qiymətli əşyalar hədiyyə edilməklə;
- əlavə məzuniyyət verilməklə;
- əmək haqqına fərdi əlavə edilməklə;
- daha yüksk məbləğdə fərdi sığorta edilməklə;
- sanatoriya-kurort müalicəsi, turist səfərləri yollayışının haqqı ödənilməklə;
- müəyyən olunmuş qaydada dövlət təltifinə təqdim olunmaq barədə vəsatət qaldırılmaqla;
- digər həvəsləndirmə vasitələri ilə.

**4.2.** Mükafatlandırma tədbirləri işəgötürənin əmri ilə elan edilir və bütün kollektivin nəzərinə çatdırılır.

## V. İNTİZAMIN POZULMASINA GÖRƏ MƏSULİYYƏT

**5.1.** Universitetdaxili intizam qaydalarının pozulmasına görə xəbərdarlıq edilir və ya Əmək Məcəlləsinin 186-cı maddəsinə uyğun olaraq onlara aşağıdakı intizam tənbehlərindən biri tətbiq edilir:

- töhmət;
- sonuncu xəbərdarlıqla şiddətli töhmət;
- kollektiv müqavilədə nəzərdə tutulmuşdursa, aylıq əmək haqqının ¼ məbləğindən çox olmamaq şərtilə əmək haqqından tutma;
- əmək müqaviləsini ləğvetmə.

**5.2.** İntizam tənbehi tətbiq edilərkən əməkdaşın şəxsiyyəti, kollektivdə nüfuzu, peşəkarlıq səviyyəsi, onun törətdiyi intizam pozuntusunun xarakteri nəzərə alınır.

## VI. XƏBƏRDARLIĞIN EDİLDİYİ HALLAR

**6.1.** Xəbərdarlıq vəzifə başında və davranışda daha diqqətli olma tələbinin yazılı və ya şifahi şəkildə bildirilməsidir. Xəbərdarlıq intizam tənbehi sayılmır.

**6.2.** Əməkdaşa xəbərdarlıq aşağıdakı hallarda elan edilir:

**6.2.1.** verilən əmir və tapşırıqların tam və vaxtında yerinə yetirilməsində, vəzifə yerində müəyyən edilən qayda və prinsiplərə əməl olunmasında, vəzifə ilə bağlı rəsmi sənəd, vasitə və ləvazimatların qorunması, istifadə edilməsi və baxımında laqeydlik göstərdikdə və ya sistemli davranmadıqda;

**6.2.2.** üzürsüz və ya icazəsiz olaraq işə gec gəldikdə, vaxtından tez getdikdə və vəzifə yerini tərk etdikdə;

**6.2.3.** UNEC tərəfindən müəyyən edilən qənaət tədbirlərinə riayət etmədikdə;

**6.2.4.** qaydalara zidd müraciət və ya şikayətlər etdikdə;

**6.2.5.** daşıdığı vəzifəyə yaraşmayan mövqe və davranış nümayiş etdirdikdə;

**6.2.6.** vəzifəsinə və vəzifə sahiblərinə qarşı laqeyd davrandıqda;

**6.2.7.** vəzifənin əməkdaşlıq çərçivəsində həyata keçirilməsi prinsipinə zidd davranışlar nümayiş etdirdikdə;

**6.2.8.** təhsilalanlarla olan münasibətlərdə inzibati işçi və müəllim adına zidd davranışlara yol verdikdə;

**6.2.9.** qanunvericiliyə görə səlahiyyətli qurumlar tərəfindən verilən sorğuları hər hansı qanuni səbəb olmadan vaxtında cavablandırmadıqda;

**6.2.10.** iş vaxtı ərzində vəzifəsindən kənar başqa işlərlə məşğul olduqda;

**6.2.11.** tabeliyində işləyən əməkdaşların ixtisasartırmasına və peşəkar inkişafına şərait yaratmadıqda;

**6.2.12.** yuxarıda qeyd olunmamış digər oxşar intizam pozuntusuna yol verdikdə.

## VII. TÖHMƏTİN ELAN EDİLDİYİ HALLAR

**7.1.** Töhmət vəzifə başında və davranışda qüsurlu olmanın yazılı şəkildə bildirilməsidir.

**7.2.** Əməkdaşa töhmət aşağıdakı hallarda elan edilir:

**7.2.1.** verilən əmir və tapşırıqların tam və vaxtında yerinə yetirilməsində, vəzifə yerində universitetdaxili qayda və prinsiplərə əməl olunmasında, vəzifə ilə bağlı rəsmi sənəd, vasitə və ləvazimatların qorunması, istifadə edilməsi və baxımında qüsurlu davrandıqda;

**7.2.2.** vəzifə başında rəhbər əməkdaşa qarşı hörmətsiz davrandıqda;

**7.2.3.** işdən kənarda rəsmi vəzifənin tələb etdiyi etibar və inam hissini sarsıdacaq mahiyyətdə davranışlar nümayiş etdirdikdə;

**7.2.4.** UNEC-ə aid rəsmi sənədi, nadir nüsxə elmi materialı və ya kitabı itirdikdə;

**7.2.5.** həmkarları ilə, tabeliyində işləyən əməkdaşlar və təhsilalanlarla pis rəftar etdikdə;

**7.2.6.** həmkarlarına söz və ya hərəkətlə sataşdıqda;

**7.2.7.** vəzifə başında əxlaq qaydalarına zidd və ədəbsiz davranış nümayiş etdirdikdə və bu cür yazı yazdıqda, işarə və oxşar şəkillər çəkdikdə;

**7.2.8.** rəhbərliyin verdiyi qərarlara qanunazidd şəkildə etiraz etdikdə;

**7.2.9.** UNEC və onun strukturlarının normal iş şəraitini pozduqda;

**7.2.10.** UNEC-ə və ya ona aid strukturlara bildirilməsi zəruri olan halları natamam və ya yalnış bildirdikdə və ya heç bildirmədikdə;

**7.2.11.** UNEC-də dərs verdiyi təhsilalanlara ödənişli əsaslarla xüsusi dərslər verdikdə;

**7.2.12.** elmi müzakirə və şərhlər xaricində, səlahiyyəti olmadığı halda mətbuata, xəbər agentliklərinə və ya radyo və televiziya qurumlarına UNEC-in rəsmi məsələlərilə bağlı informasiya və ya müsahibə verdikdə;

**7.2.13.** dərs vaxtı auditoriyada dərs məqsədləri xaricində mobil telefonlardan istifadə etdikdə;

**7.2.14.** qadağan olunmuş sahələrdə siqaret çəkdikdə;

**7.2.15.** dəhlizləri və auditoriyaları zibillədikdə;

**7.2.16.** yazılı xəbərdarlıqlara baxmayaraq müvafiq iclasları çağırmadıqda;

**7.2.17.** yuxarıda qeyd olunmamış digər oxşar intizam pozuntusuna yol verdikdə.

## VIII. SONUNCU XƏBƏRDARLIQLA ŞİDDƏTLİ TÖHMƏTİN ELAN EDİLDİYİ HALLAR

**8.1.** Sonuncu xəbərdarlıqla şiddətli töhmət əməkdaşın yol verdiyi intizam pozuntusu da daxil olmaqla yazılı şəkildə elan edilən rəsmi bildirişdir.

**8.2.** Əməkdaşa sonuncu xəbərdarlıqla şiddətli töhmət aşağıdakı hallarda elan edilir:

**8.2.1.** rəhbərini və tabeliyində işləyən əməkdaşları hörmətdən salmağa istiqamətlənmiş davranış nümayiş etdirdikdə;

**8.2.2.** saxta hesabat və ya sənəd tərtib etdikdə;

**8.2.3.** vəzifəsinin icrasında dil, irq, cinsiyyət, siyasi baxış, fəlsəfi inanc, din və məzhəb ayrı-seçkiliyinə, ayrı-ayrı fərdlərin fayda və zərərinə səbəb olan davranışlar nümayiş etdirdikdə;

**8.2.4.** bəyan edilməsi qadağan olunan informasiyaları yaydıqda;

**8.2.5.** rəhbərini, əməkdaşlarını, həmkarlarını təhqir etdikdə və ya təhdid etdikdə;

**8.2.6.** verilən vəzifə və tapşırıqları qəsdən icra etmədikdə;

**8.2.7.** UNEC-də hər hansı bir siyasi partiyanın lehinə və ya əleyhinə fəaliyyət göstərdikdə;

**8.2.8.** vəzifəsi ilə bağlı rəsmi sənəd və inventarları vəzifəsinin başa çatmasına və UNEC-in müvafiq qurumlarının yazılı tələbinə baxmayaraq geri vermədikdə və ya təhvil-təslim əməliyyatını vaxtında aparmadıqda;

**8.2.9.** birbaşa və vasitəçi əli ilə hədiyyə istədikdə və vəzifə başında olmasa belə üstünlük və fayda təmin etmək məqsədilə hədiyyə qəbul etdikdə və ya ayrı-ayrı şəxslərdən və təhsilalanlardan borc istədikdə və ya aldıqda;

**8.2.10.** UNEC tədbirlərinin proqramlarını pozacaq hərəkətlər etdikdə və ya bu hərəkətlərə başqalarını təşviq və ya təhrik etdikdə;

**8.2.11.** UNEC daxilində səlahiyyətli şəxslərdən icazə almadan vəzifəsi ilə bağlı olmayan elan vurduqda və ya təşviqat apardıqda;

**8.2.12.** siyasi və ideoloji məqsədlər daşımayan boykot, işi yavaşlatma kimi etirazlara təşəbbüs göstərdikdə;

**8.2.13.** UNEC rəhbərliyindən müvafiq icazə almadan UNEC daxilində iclaslar keçirdikdə, nitqlər söylədikdə, digər elmi və mədəni tədbirlər təşkil etdikdə;

**8.2.14.** tədris prosesini və elmi tədbirləri pozduqda, əməkdaşları, təhsilalanları tədris prosesindən uzaqlaşdırdıqda, onları bu tipli davranışlara təşviq etdikdə və ya məcbur etdikdə və ya bu məqsədlə həyata keçiriləcək aksiyalarda iştiraka çalışdıqda;

**8.2.15.** vəzifə başında rəsmi vəzifənin tələb etdiyi etibar və inam hissini sarsıdacaq mahiyyətdə davranışlar nümayiş etdirdikdə;

**8.2.16.** vəzifə başında rəhbərinə sözlə hörmətsizlik etdikdə;

**8.2.17.** vəzifəsi ilə bağlı verilən sənədlərdə təhriflərə yol verdikdə, təhrif edilmiş sənədlərdən istifadə etdikdə və ya istifadə etdirdikdə;

**8.2.18.** UNEC-ə aid rəsmi sənəd və inventarı şəxsi mənafeyi üçün istifadə etdikdə;

**8.2.19.** yuxarıda qeyd olunmamış digər oxşar intizam pozuntusuna yol verdikdə.

## IX. ƏMƏK HAQQINDAN TUTMANIN TƏTBİQ EDİLDİYİ HALLAR

**9.1.** Kollektiv müqavilədə nəzərdə tutulmuşdursa, aylıq əmək haqqının ¼ məbləğindən çox olmamaq şərtilə əmək haqqından tutma yolu ilə əməkdaşın intizam tənbehinə cəlb edilməsi aşağıdakı hallarda tətbiq edilir:

**9.1.1.** vəzifə ilə bağlı rəsmi sənəd və inventarları qorumadıqda, baxımını aparmadıqda və ya korladıqda;

**9.1.2.** UNEC-in hər hansı bir məkanının iclas və ya tədbir keçirilməsi məqsədilə icazəsiz istifadə edilməsinə kömək etdikdə;

**9.1.3.** səlahiyyətləri altında olan hər hansı bir strukturdan birbaşa və ya dolayı olaraq hər hansı bir maddi fayda götürməyə təşəbbüs göstərdikdə;

**9.1.4.** UNEC-ə aid olan əmlakı şəxsi işləri üçün istifadə etdikdə;

**9.1.5.** yuxarıda qeyd olunmamış digər oxşar intizam pozuntusuna yol verdikdə.

## X. ƏMƏK MÜQAVİLƏSİNİN LƏĞV EDİLDİYİ HALLAR

**10.1.** Əmək müqaviləsini ləğv etmək intizam tənbehi aşağıdakı hallarda tətbiq edilir:

**10.1.1.** özünün əmək funksiyasını və ya əmək müqaviləsi üzrə öhdəliklərini yerinə yetirmədikdə;

**10.1.2.** özünün xəstəliyi, yaxın qohumunun xəstələnməsi və ya vəfat etməsi istisna olunmaqla heç bir üzürlü səbəb olmadan bütün iş günü işə gəlmədikdə;

**10.1.3.** alkoqollu içkilər, narkotik vasitələr və psixotrop, toksik və digər zəhərli maddələr qəbul edərək sərxoş vəziyyətdə işə gəldikdə, habelə işə gəldikdən sonra iş yerində həmin içkiləri və ya maddələri qəbul edərək sərxoş vəziyyətdə olduqda;

**10.1.4.** təqsirli hərəkətləri (hərəkətsizliyi) nəticəsində mülkiyyətçiyə maddi ziyan vurduqda;

**10.1.5.** təqsirli hərəkətləri (hərəkətsizliyi) nəticəsində əməyin mühafizəsi qaydalarını pozaraq iş yoldaşlarının səhhətinə xəsarət yetirdikdə və ya onlar bu səbəbdən həlak olduqda;

**10.1.6.** qəsdən istehsal, kommersiya və ya dövlət sirrinin yayılması və ya bu sirrin gizli saxlanılması üzrə öhdəliklərini yerinə yetirmədikdə;

**10.1.7.** əmək fəaliyyəti zamanı yol verdiyi kobud səhvləri, hüquq pozuntuları nəticəsində işəgötürənin, müəssisənin və ya mülkiyyətçinin qanuni mənafeyinə ciddi xələl gətirdikdə;

**10.1.8.** əmək funksiyasını pozduğuna görə əvvəllər işəgötürən tərəfindən verilmiş intizam tənbehindən nəticə çıxarmayaraq altı ay ərzində təkrarən əmək funksiyasını pozduqda;

**10.1.9.** başqasının elmi əsərini və ya tədqiqatını bütövlükdə və ya onun bir hissəsini mənbə göstərmədən öz əsəri kimi qələmə verdikdə;

**10.1.10.** iş vaxtı ərzində bilavasitə iş yerində inzibati xətalara və ya cinayət tərkibi olan ictimai-təhlükəli əməllərə yol verdikdə;

## XI. İNTİZAM MƏSULİYYƏTİNƏ CƏLBETMƏ QAYDALARI VƏ PROSEDURLARI

**11.1.** İntizam tənbehi verilməmişdən əvvəl UNEC rəhbərliyi işçidən yazılı izahatın verilməsini tələb edir. İşçinin yazılı izahat verməkdən imtina etməsi ona intizam tənbehi verilməsini istisna etmir.

**11.2.** İntizam tənbehi, işçi tərəfindən əmək və ya icra intizamının pozulduğu aşkar edildiyi gündən bir ay keçənədək verilir. İşçinin xəstə olduğu, yaxud məzuniyyətdə, ezamiyyətdə olduğu vaxt həmin müddətə daxil edilmir.

**11.3.** İntizam xətasının törədildiyi gündən altı ay keçdikdən sonra işçiyə intizam tənbehi tətbiq edilməsinə yol verilmir. Müəssisənin maliyyə-təsərrüfat fəaliyyətinin auditinin (yoxlanılmasının, təftiş aparılmasının) nəticələri ilə aşkar edilmiş vəzifə hüquqpozması ilə bağlı intizam xətalarına görə isə işçiyə həmin xətalar törədildiyi gündən iki il keçdikdən sonra intizam tənbehi tətbiq edilməsinə yol verilmir. Cinayət işi üzrə icraat bu müddətə daxil edilmir.

**11.4.** Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat vermiş işçi barəsində intizam tənbehi tətbiq edilərkən intizam tənbehinin qanunla müəyyən edilmiş hallardan irəli gəlməsi və korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumata aidiyyəti olmadığı əsaslandırılır.

**11.5.** İntizam tənbehi qanunvericiliklə nəzərdə tutulmuş digər hallar istisna olmaqla, yalnız əməkdaşla əmək müqaviləsi bağlamaq, onun şərtlərini dəyişdirmək və ona xitam vermək səlahiyyətlərinə malik olan Rektor tərəfindən verilir.

**11.6.** Bir intizam xətasına görə yalnız bir intizam tənbehi verilir. Bir dəfə törədilən bir intizam xətasına görə eyni zamanda bir neçə intizam tənbehinə yol verilmir.

**11.7.** İntizam tənbehi işçiyə işdə olduğu iş günü ərzində verilir. Məzuniyyətdə, ezamiyyətdə olan, əmək qabiliyyətini müvəqqəti itirdiyi müddət ərzində işçiyə intizam tənbehi tətbiq edilməsinə yol verilmir.

**11.8.** İntizam tənbehi Rektorun əmri (sərəncamı, qərarı) ilə verilir. İşçi həmin əmrlə (sərəncamla, qərarla) tanış edilir və onun tələbi ilə əmrin surəti ona təqdim olunur.

**11.9.** İntizam tənbehi verilməsi barədə əmrdə (sərəncamda, qərarda) işçinin şərəf və ləyaqətini alçaldan, onun şəxsiyyətini, mənəvi hisslərini

gözdən salan, habelə intizamsızlığına görə qisas almaq motivli məlumatların göstərilməsinə yol verilmir.

**11.10.** İntizam tənbehi verilən gündən altı ay müddətində qüvvədə olur.

**11.11.** İşçi verilən intizam tənbehindən nəticə çıxararaq əmək funksiyasını yüksək səviyyədə yerinə yetirərsə, daxili əmək və intizam qaydalarını pozmazsa Rektor işdə fərqləndirilmə qaydasında intizam tənbehini vaxtından əvvəl öz əmri (sərəncamı, qərarı) ilə ləğv edə bilər.

**11.12.** İşçi intizam tənbehi verilərkən işəgötürən tərəfindən qanunvericiliyin tələblərinin və onun hüquqlarının pozulduğunu iddia edərsə, Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada fərdi əmək mübahisəsinin həlli üçün məhkəməyə müraciət edə bilər.

**11.13.** İntizam tənbehinin qüvvədə olduğu müddət ərzində əmək funksiyasını yüksək peşəkarlıqla yerinə yetirdiyinə, daxili intizam qaydalarına əməl etdiyinə görə işçi bu Qaydalarla nəzərdə tutulmuş hər hansı həvəsləndirmə vasitələri ilə mükafatlandırılarsa, həmin mükafatlandırıldığı gündən ona verilmiş intizam tənbehi qüvvədən düşmüş hesab edilir.

## XII. YEKUN MÜDDƏALAR

**12.1.** Qaydaların həyata keçirilməsinə UNEC Rektoru nəzarət edir.

**12.2.** Qaydalara əlavə və dəyişikliklər UNEC Elmi Şurasında müzakirəyə çıxarılır və Elmi Şuranın qərarı ilə təsdiq olunur.

**12.3.** Qaydalar UNEC Elmi Şurasında təsdiq edildiyi gündən qüvvəyə minir.

## AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİNDƏ (UNEC) TƏHSİLALANLARIN UNİVERSİTETDAXİLİ İNTİZAM

# QAYDALARI

## I. ÜMUMİ MÜDDƏALAR

**1.1.** "Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) Təhsilalanların Universitetdaxili İntizam Qaydaları" (bundan sonra - Qaydalar) Azərbaycan Dövlət İqtisad Universitetində (bundan sonra-UNEC) təhsil alan bütün təhsilalanların UNEC daxilində ümumi davranışında və tədris prosesi iştirakçıları ilə real və virtual müstəvidə qarşılıqlı münasibətlərində yol verməməli olduğu intizam pozuntularını və müvafiq intizam məsuliyyətini müəyyən edən normalardan ibarətdir.

**1.2.** Bu Qaydalar Azərbaycan Respublikasının Konstitusiyasına, "Təhsil Haqqında" Qanununa, "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydalarına", "Təhsil prosesi iştirakçılarının etik standartlar modeli"nə və digər qanunvericilik aktlarına uyğun hazırlanmışdır.

**1.3.** Bu Qaydaların tətbiqində əsas məqsəd təhsilalanlar arasında təlim-tədris intizamını möhkəmləndirmək və onlarda tədris prosesinə şüurlu yanaşmanı formalaşdırmaqdır.

**1.4.** Bu Qaydalar UNEC-ə daxil olduğu andan etibarən bütün təhsilalanlar üçün məcburi xarakter daşıyır.

**1.5.** Bu Qaydaların pozulmasına görə təhsilalanlara intizam tənbeh tədbirləri tətbiq edilir.

**1.6.** Bu Qaydalar bərabərlik, ədalətlilik və humanizm prinsiplərinə əsaslanır.

**1.6.1.** intizam qaydalarını pozmuş təhsilalanlar irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, maddi vəziyyətindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına, başqa ictimai birliklərə mənsubiyyətindən və digər hallardan asılı olmayaraq bərabərlik prinsipi əsasında intizam məsuliyyətinə cəlb olunurlar;

**1.6.2.** intizam qaydalarını pozmuş təhsilalana tətbiq edilən intizam tənbeh tədbiri intizam pozuntusunun xarakterinə, ictimai təhlükəlilik dərəcəsinə və onun törədilməsi hallarına uyğun olaraq ədalətli olmalıdır;

**1.6.3.** intizam qaydalarını pozmuş təhsilalana tətbiq edilən intizam tənbeh tədbiri humanizm prinsipi əsaslanaraq təhsilalanın şəxsi keyfiyyətləri də nəzərə alınmaqla, onun yoldaşları arasında nüfuzunu, şərəf və ləyaqətini alçaltmaq məqsədi daşımamalıdır.

## II. İNTİZAMIN POZULMASINA GÖRƏ MƏSULİYYƏT

**2.1.** Universitetdaxili intizam qaydalarının pozulmasına görə təhsilalanlara xəbərdarlıq verilə və ya aşağıdakı intizam tənbehi tədbirlərindən biri tətbiq edilir:

- töhmət;
- sonuncu xəbərdarlıqla şiddətli töhmət;
- UNEC təhsilalanları sırasından xaricedilmə.

**2.2.** Təhsilalan eyni intizam qaydasını təkrar pozduqda ona bir sonrakı daha ağır intizam tənbehi tətbiq edilir.

**2.3.** İntizam tənbehi verilərkən aşağıdakılar nəzərə alınır:

- törədilən hadisənin ağırlıq dərəcəsi;
- vurulan ziyanin dəyəri;
- hadisənin baş vermə faktı və halları;
- intizam tənbehini yüngülləşdirən və ağırlaşdıran hallar;
- hadisənin qəsdən və ya ehtiyatsızlıqdan törədilməsi;
- hadisənin baş verməsinə təsir edən səbəb və şərait;
- təhsilalanın şəxsi keyfiyyətləri;
- təhsilalanın müvəffəqiyyət göstəriciləri.

**2.4.** Xəstəlik, tətil, akademik məzuniyyət, hamiləlik və ya doğuşa görə məzuniyyət vaxtı təhsilalanın barəsində intizam tənbeh tədbiri təqbiq edilmir və UNEC-dən xaric edilməsinə yol verilmir.

## III. XƏBƏRDALIĞIN EDİLDİYİ HALLAR

**3.1.** Xəbərdarlıq təhsilalanın universitetdaxili intizam qaydalarına daha diqqətli əməl etməsi barədə yazılı və ya şifahi şəkildə elan edilən rəsmi bildirişdir. Xəbərdarlıq intizam tənbehi sayılmır.

**3.2.** Xəbərdarlıq aşağıdakı hallarda verilir:

**3.2.1.** başqalarına qarşı kobudluq və hörmətsizlik etdikdə;

**3.2.2.** başqalarını narahat edəcək şəkildə ucadan danışdıqda, qışqırdıqda, mahnı oxuduqda, musiqiyə qulaq asdıqda və səs-küy saldıqda;

**3.2.3.** ətrafın təmizliyinə riayət etmədikdə;

**3.2.4.** UNEC-in səlahiyyətli şəxsləri tərəfindən verilən sorğuları üzürlü səbəb olmadan vaxtında cavablandırmadıqda;

**3.2.5.** UNEC-də müəyyən olunmuş yerlər xaricində elanlar asdıqda;

**3.2.6.** UNEC-in müvafiq strukturlarının icazəsi ilə asılmış elanları qopardıqda, dəyişdirdikdə, qaraladıqda və ya yararsız hala saldıqda;

**3.2.7.** yuxarıda qeyd olunmamış digər oxşar intizam pozuntularına yol verdikdə.

## IV. TÖHMƏTİN ELAN EDİLDİYİ HALLAR

**4.1.** Töhmət təhsilalanın hərəkət və davranışlarında yol verdiyi intizam pozuntuları barədə yazılı şəkildə elan edilən rəsmi bildirişdir.

**4.2.** Töhmət aşağıdakı hallarda verilir:

**4.2.1.** UNEC-in səlahiyyətli şəxsləri tərəfindən tələb olunan məlumatları onlara məqsədli şəkildə natamam və yanlış şəkildə bildirdikdə;

**4.2.2.** hərəkətləri və davranışı ilə mühazirə, seminar, laboratoriya işləri, elmi konfrans, mədəni tədbir və s. gedişini pozduqda;

**4.2.3.** UNEC-də divarlara və əşyaların üzərinə yazı yazdıqda, işarələr qoyduqda, şəkil çəkdikdə, onları korladıqda;

**4.2.4.** dərs vaxtı auditoriyada mobil telefonlardan istifadə etdikdə;

**4.2.5.** UNEC daxilində icazəsiz olaraq elanlar və digər yazılı məlumatlar yaydıqda;

**4.2.6.** imtahanlarda köçürməyə cəhd göstərdikdə;

**4.2.7.** başqalarına qəsdən sözlə və hərəkətlə sataşdıqda

**4.2.8.** yuxarıda qeyd olunmamış digər oxşar intizam pozuntusuna yol verdikdə.

## V. SONUNCU XƏBƏRDARLIQLA ŞİDDƏTLİ TÖHMƏTİN ELAN EDİLDİYİ HALLAR

**5.1.** Sonuncu xəbərdarlıqla şiddətli töhmət təhsilalanın yol verdiyi intizam pozuntusu da qeyd olunmaqla yazılı şəkildə elan edilən rəsmi bildirişdir.

**5.2.** Sonuncu xəbərdarlıqla şiddətli töhmət aşağıdakı hallarda verilir:

**5.2.1.** UNEC daxilində siyasi və dini təbliğatla məşğul olduqda;

**5.2.2.** intizam qaydalarının pozulması ilə bağlı aparılan təhqiqata mane olduqda;

**5.2.3.** UNEC-dən rəsmi şəkildə aldığı və ona aid olan sənədi istifadə üçün başqasına verdikdə və başqasına aid olan sənədi özü üçün istifadə etdikdə;

**5.2.4.** mühafizə xidmətinin tələbinə əsasən UNEC-ə tələbə bileti təqdim etmədən daxil olmaq istədikdə və ya başqasının tələbə bileti ilə UNEC-ə daxil olmağa cəhd etdikdə;

**5.2.5.** UNEC daxilində və xaricində, o cümlədən də sosial şəbəkələrdə insanların şərəf və ləyaqətini alçaldan, həqiqətə uyğun olamayan şifahi və ya yazılı formada məlumatlar yaydıqda;

**5.2.6.** UNEC daxilində spirtli içki içdikdə və ya UNEC-ə içkili vəziyyətdə gəldikdə;

**5.2.7.** UNEC daxilində qadağan olunmuş yerlərdə siqaret çəkdikdə;

**5.2.8.** imtahanlarda köçürmək və ya köçürməyə şərait yaratdıqda;

**5.2.9.** buraxılış işləri, dissertasiya və s. yazılışında müəllif hüquqlarını kobud şəkildə pozduqda;

**5.2.10.** təkbaşına və ya qrup şəklində müəllim və rəhbər işçilərin qəbul etdikləri qərarlara qarşı çıxdıqda və bununla əlaqədar təhsilalanlar arasında həmin şəxslərə qarşı təbliğat apardıqda və ya belə hərəkətlərə cəhd etdikdə;

**5.2.11.** dilinə, irqinə, dininə, cinsinə, milli mənsubiyyətinə görə tələblə yoldaşları arasında ayrı-seçkiliyə yol verdikdə və dini məzhəb kimi əlamətlərə görə qütbləşmələr yaradacaq fəaliyyət göstərdikdə;

**5.2.12.** UNEC-dəki əşyalara, qapı, pəncərə, divar və digər yerlərə ideoloji və ya siyasi xarakterli yazılar yazdıqda, şəkil, emblem və s. yapışdırdıqda;

**5.2.13.** UNEC və ona bağlı qurumlarda, cavabdeh şəxslərdən icazə almadan müxtəlif tədbirlər təşkil etdikdə və ya belə tədbirlərdə iştirak etdikdə;

**5.2.14.** UNEC-i və ya onun hər hansı bir qurumunu təmsil etmək səlahiyyəti olmadığı halda özünü səlahiyyətli şəxs kimi göstərərək bəyanatlar verdikdə;

**5.2.15.** UNEC binaları və ərazisində qadağan olunmuş yerlərə daxil olduqda;

**5.2.16.** qeyri-qanuni təşkilatlara üzv olduqda və ya bu təşkilatların lehinə fəaliyyət göstərdikdə;

**5.2.17.** UNEC-in əməkdaşına (və ya əməkdaşlarına) qarşı xüsusi kampaniya apardıqda, onun peşəkar nüfuzuna, şərəf və ləyaqətinə xələl gətirəcək məlumatlar yaydıqda, bu məqsədlə təhsilalanlar arasında imza topladıqda, onları təşkilatlandırdıqda və ya buna cəhd etdikdə;

**5.2.18.** təhsilalan dərsdə (və ya dərslərdə) iştirak etməyərək öz əvəzinə başqa şəxsin dərsdə iştirak etməsinə şərait yaratdıqda, həmçinin

təhsilalan başqa təhsilalanın yerinə dərsdə (və ya dərslərdə) iştirak etdikdə;

**5.2.19.** yuxarıda qeyd olunmamış digər oxşar intizam pozuntusuna yol verdikdə.

## VI. UNEC TƏHSİLALANLARI SIRASINDAN XARİCEDİLMƏ HALLARI

**6.1.** UNEC təhsilalanları sırasından xaricedilmə təhsilalana bu barədə yazılı şəkildə bildirişin elan edilməsidir.

**6.2.** UNEC təhsilalanları sırasından xaricedilmə aşağıdakı hallarda tətbiq edilir:

**6.2.1.** UNEC daxilində narkotik vasitələrdən və psixotrop maddələrdən istifadə etdikdə və ya UNEC-ə narkotik vasitələrdən və psixotrop maddələrdən istifadə etmiş halda gəldikdə;

**6.2.2.** UNEC əməkdaşları və təhsilalanlarına hədə-qorxu gəldikdə;

**6.2.3.** UNEC əməkdaşları və təhsilalanlarına zor tətbiq etdikdə;

**6.2.4.** güc tətbiq edərək işçiləri və ya təhsilalanları UNEC xaricinə çıxarmaq, onların öz vəzifələrini icra etməsinə mane olmaq, başqalarını belə hərəkətlərə təhrik etdikdə;

**6.2.5.** bilərəkdən, planlı şəkildə UNEC-in nüfuzuna xələl gətirən tədbirlər keçirmək, iclaslar, mitinqlər və nümayişlər təşkil etmək, təbliğatlar apardıqda;

**6.2.6.** UNEC əməkdaşlarının şərəf və ləyaqətini, şəxsiyyətini ağır şəkildə təhqir etmək;

**6.2.7.** imtahan zalında nəzarətçinin müvafiq göstərişlərinə məhəl qoymadıqda və imtahan prosesini kobud şəkildə pozduqda;

**6.2.8.** UNEC-də oğurluq etdikdə;

**6.2.9.** UNEC-in bina və inventarlarını yararsız hala salmaq və informasiya sisteminə ciddi zərər vurduqda;

**6.2.10.** imtahanlarda hədə-qorxu gələrək köçürmək və köçürən təhsilalanların imtahan otağından uzaqlaşdırılmasına mane olmaq;

**6.2.11.** təhsilalan bilərəkdən öz əvəzinə başqasının imtahan verməsinə şərait yaratdıqda və ya başqa təhsilalanın əvəzinə imtahan verməyə cəhd etdikdə;

**6.2.12.** imtahan suallarının bir qismini və ya bütövlükdə, hər hansı bir qeyri-qanuni yolla əldə etdikdə;

**6.2.13.** UNEC-ə aid olan rəsmi sənəddə səlahiyyətli şəxsin imzasını saxtalaşdırdıqda;

**6.2.14.** UNEC sənədlərində dəyişikliklər etdikdə, başqalarını buna təhrik etdikdə;

6.2.15. UNEC-in informasiya bazasına girərək özünün və ya başqasının lehinə qanunsuz əməliyyatlar aparmaq;

6.2.16. auditoriyalarda elektron tribunalara, həmçinin elektron jurnala müdaxilə etdikdə;

6.2.17. UNEC əməkdaşlarını müxtəlif yollarla (rüşvət, hədiyyə, tapşırıq, hədə-qorxu, şantaj, aldatma və s.) ələ almaq məqsədi daşıyan davranışlara yol vermək;

6.2.18. auditoriyaya soyuq silah sayıla biləcək əşyalarla (bıçaq, digər kəsici-deşici alət, bədənə xəsarət yetirə biləcək küt alət, beşbarmaq və. s. kimi) daxil olduqda və aşkarlandığı halda həmin əşyaların təhvil verilməsindən imtina etdikdə;

6.2.19. yuxarıda qeyd olunmamış digər oxşar intizam pozuntularınana yol verdikdə.

## VII. KOLLOKVİUM, İMTAHAN VƏ MÜDAXİLƏ NƏTİCƏLƏRİNİN LƏĞV EDİLMƏSİ

**7.1.** Təhsilalanlar kollokvium və imtahanlarda köçürmə ilə bağlı intizam pozuntularına yol verdikdə və akademik nəticələrinin əks olunduğu sənədlərə (yazılı və ya elektron) müdaxilə etdikdə, onlar haqqında müvafiq intizam təhbehi qərarı verilməklə yanaşı, kollokvium, imtahan və müdaxilə nəticələri də ləğv edilir.

## VIII. İNTİZAM MƏSULİYYƏTİNƏ CƏLBETMƏ PROSEDURU

**8.1.** Təhsilalana intizam tənbehinin tətbiq edilməsi fakültə dekanının yazılı təqdimatı ilə rektorun əmrinə əsasən həyata keçirilir. Təhsilalan 3 gün ərzində rektorun müvafiq əmri ilə tanış edilir.

**8.2.** İntizam tənbehi müvafiq hadisənin baş verməsinin aşkar olunduğu gündən 2 ay keçənədək tətbiq edilə bilər.

**8.3.** Təhsilalana tətbiq edilən intizam tənbehi haqqında məlumat onun şəxsi işinə və transkriptinə qeyd edilir.

**8.4.** Təhsilalana tətbiq edilən intizam tənbehi haqqında məlumat onun təhsil aldığı fakültənin elanlar lövhəsində yerləşdirilir.

## IX. İNTİZAM TƏNBEHİNDƏN APELYASİYA ŞİKAYƏTİNİN VERİLMƏSİ QAYDASI

**9.1.** İntizam tənbehi ilə bağlı rəsmi əmr haqqında təhsilalana məlumat veriləndən 3 iş günu müddətində təhsilalan apelyasiya şikayəti verə bilər.

**9.2.** Apelyasiya şikayəti rektora ünvanlanır.

**9.3.** Apelyasiya şikayəti ilə bağlı rektor tərəfindən apelyasiya komissiyası yaradılır və 5 iş günü müddətində araşdırma aparılır.

İlkin araşdırmada iştirak edən şəxslər apelyasiya komissiyasının üzvü ola bilməzlər.

**9.4.** Apelyasiya komissiyası şıkayəti araşdırır və intizam tənbehi ilə bağlı verilən qərarın qüvvədə saxlanması, ləğv edilməsi və ya ona dəyişikliklər edilməsi barədə rekora tövsiyələrini verir.

**9.5.** Apelyasiya komissiyasının tövsiyələrinə əsasən rektor son qərar verir və bu qərar qətidir.

**9.6.** Təhsilalana intizam tənbehi tətbiq edildiyi gündən 1 il ərzində yenidən intizam məsuliyyətinə cəlb edilməmişsə, intizam məsuliyyətinə ümumiyyətlə cəlb edilməmiş sayılır.

**9.7.** Dərslərində və davranışlarında yaxşı göstəricilərə görə intizam tənbehi 6 aydan sonra vaxtından əvvəl götürülə bilər.

## X. YEKUN MÜDDƏALAR

**10.1.** Qaydaların həyata keçirilməsinə UNEC Rektoru nəzarət edir.

**10.2.**Qaydalara əlavə və dəyişikliklər UNEC Elmi Şurasında müzakirəyə çıxarılır və Elmi Şuranın qərarı ilə təsdiq olunur.

**10.3.** Qaydalar UNEC Elmi Şurasında təsdiq edildiyi gündən qüvvəyə minir.

**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) Təhsilalanlarının Etik Davranış Kodeksi**

UNEC təhsilalanları universitetdə qeydiyyatdan keçdiyi andan etibarən aşağıda qeyd edilən etik dəyər və prinsipləri real və virtual müstəvidəki bütün fəaliyyətlərində rəhbər tutacaqlarına şərəf sözü verirlər:

1. Başqalarının fikir və düşüncələrini ifadə azadlıqlarına hörmət göstərmək;

2. Ayrı-seçkilik etmədən fərqliliklərə hörmət etmək, baqşalarına qarşı şərəf və ləyaqəti alçaldıcı davranışlara yol verməmək; Universitetin professor-müəllim və inzibati heyətinə və digər təhsilalanlara qarşı hörmətlə davranmaq;

3. Söz və ya hərəkətlərlə başqalarına qarşı zorakılığa və təhqirə yol verməmək;

4. Başqasının akademik və şəxsi məlumatlarını həmin şəxsin icazəsi olmadan əldə etməmək və yaymamaq;

5. Ətraf mühitə və canlı aləmə zərər vermədən, yaşadığı və fəaliyyət göstərdiyi ərazini təmiz saxlayaraq, səs və görüntü kirliliyi yaratmadan və məhdud resurslardan səmərəli istifadə edərək kampüsdə keyfiyyətli həyatın davamlılığını təmin etməyə çalışmaq;

6. Dərslərə davam etmək və keçirilən imtahanlarda iştirak etmək. Ev tapşırığı, sərbəst iş, hesabat hazırlama və.s. öhdəlikləri vaxtında yerinə yetirmək;

7. Qiymətlərini və akademik vəziyyətini daim diqqətdə saxlamaq;

8. Akademik təqvimi və qaydaları bilmək, diqqətdə saxlamaq və onlara əməl etmək;

9. Aşağıdakı elmi plagiat və digər akademik dürüstlük prinsiplərinə əməl etmək:

- Bütün akademik fəaliyyətlərdə qiymətləndirmələrin yalnız öz intellektual əməyinin nəticələri əsasında aparılacağını, başqasının fikir, təklif və düşüncələrini mənbə göstərmədən, qismən və ya bütövlükdə köçürmənin və / və ya tərcümə etmənin yolverilməzliyini dərk etmək;
- Nəşr edilmiş və ya əlyazma formasında olan hər hansı bir mənbədən (məsələn, məqalə, kitab, hesabat, baqşa bit təhsilalanın tədqiqatı, internet mətni və.s.) istifadə edərkən müvafiq qaydada istinadlar vermək;
- Başqası tərəfindən edilmiş və / və ya başqasına etdirilmiş tədqiqatı öz tədqiqatı kimi təqdim etməmək;
- İmtahanlarda köçürməmək və başqalarına bu işdə kömək etməmək;
- Elektron sənədlər də daxil olmaqla, heç bir sənəddə özünün və başqalarının lehinə / və ya əleyhinə təhriflərə yol verməmək;

10. Haqsız rəqabətə gətirib çıxaran davranışlara yol verməmək və dəstək göstərməmək;

11. Təhsil aldıqları müddət ərzində öyrəndikləri bütün bilikləri və qazandıqları bütün bacarıqları yalnız insanlığın faydası üçün istifadə etmək;

12. Təyin edilən görüşlərə vaxtında gəlmək;

13. Tədbirlərdə iştirak edə bilməyəcəyi təqdirdə əvvəlcədən məlumat vermək;

14. Üzvü olduğu seçkili strukturların seçki proseslərində aktiv iştirak etmək;

15. Özü ilə bağlı məlumatların yeni və dürüst olmasına görə məsuliyyət daşımaq və bu istiqamətdə zəruri addımları atmaq.

## AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ (UNEC) ƏMƏKDAŞLARININ ETİK DAVRANIŞ KODEKSİ

## GİRİŞ

Bu sənəd, UNEC əməkdaşlarının real və virtual müstəvilərdə əməl etməli olduğu etik dəyərləri və prinsipləri özündə birləşdirir. Sənəd, Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi, Təhsil Nazirliyi Kollegiyasının 2014-cü il 6 noyabr tarixli, ½ nömrəli qərarı ilə təsdiq edilmiş "Müəllimlərin etik davranış qaydaları" və UNEC Nizamnaməsi nəzərə alınaraq hazırlanmışdır.

Sənədin məqsədi, UNEC əməkdaşlarının üzləşdikləri etik problemlərin həllində və həmkarları, tələbələri, universitetin rəhbər işçiləri, universitetdən kənarda olan fərdlər və təşkilatlarla münasibətlərində və milli və beynəlxalq ictimaiyyətlə əlqələrində tətbiq edəcəkləri prinsipləri müəyyənləşdirməkdir.

UNEC əməkdaşları, dürüstlük prinsipi və məsuliyyətlilik şüuruna əsaslanaraq etik davranış standartlarına uyğun hərəkət etmək öhdəliyi daşıyırlar.

UNEC əməkdaşları, həqiqət axtarışında olmanın və mükəmməl olanı əldə etmək üçün çalışmanın; etik prinsip və ideallarin reallaşdırılması baxımından elmi tədqiqat, öyrənmə, öyrətmə, biliyin bölüşülməsi, fikir bildirmə, ünsiyyət və ifadə azadlıqlarını özündə ehtiva edən akademik azadlığın qorunmasının, hamı üçün bərabər fürsət və imkanlar yaradılmasının zəruriliyini vurğulayırlar. UNEC əməkdaşları, bütün bu prosesləri aşağıda göstərilən etik dəyər və prinsiplər əsasında həyata keçirməyi qəbul edir və bununla bağlı məsuliyyətlərini dərk edirlər.

Hər bir UNEC əməkdaşı işə qəbul olunarkən bu kodeksi fəaliyyətində rəhbər tutacağına şərəf sözü verir. Professor-müəllim heyətinin üzvləri UNEC-də işə başlamadan öncə qanunvericiliyə müvafiq olaraq, "müəllim andı" da içir.

## BİRİNCİ HİSSƏ

## ƏSAS ANLAYIŞLAR VƏ DƏYƏRLƏR

## 1.1. Əsas anlayışlar

*Etika*: fərdlərin, təşkilatların və peşə mənsublarının davranışlarına yol göstərən, onlara yaxşını və doğrunu müəyyən etməkdə kömək edən dəyərlər, prinsiplər və standartların məcmusudur.

*Akademik etika*: professor-müəllim heyətinin elmi tədqiqatların aparılması, təqdim edilməsi və qiymətləndirilməsində, cəmiyyətin müxtəlif maraqlı tərəfləri ilə münasibətlərində, mükafatlandırma və vəzifədə yüksəltmə mərhələlərində, universitetin peşəkarlığa əsaslanan strukturlaşdırılması ilə elm adamalarının yetişdirilməsi proseslərinin hər mərhələsində etik davranış qaydalarına əməl etmələrini nəzərdə tutur.

*Plagiat / Bilik oğurluğu*: Elmi qaydalara uyğun olaraq zəruri istinadları vermədən, mənbələri göstərmədən və ya müvafiq şəkildə icazə almadan başqalarının fikir, metod, verilən, əsər və nəşrlərini qismən və ya tamamilə özününkü kimi təqdim etmək və nəşr etməkdir.

*Uydurma*: Olmayan verilənləri və nəticələri var olan kimi təqdim etməkdir.

*Yanıltma / təhrif etmə*: məqsədli şəkildə verilənlər və / və ya nəticələr üzərində dəyişiklik etmək, verilənləri gizlətmək və / və ya təhrif etməkdir.

*Təkrar nəşr etdirmə*: Eyni elmi tədqiqatı tam şəkildə mənbə göstərmədən müxtəlif əsər kimi bir dən çox elmi nəşrdə çap etdirməkdir.

*Bölərək nəşr etdirmə*: Tamamlanmış bir tədqiqatı elmi əsər sayını artırmaq məqsədilə bölərək nəşr etdirməkdir.

*Saxta / haqsız müəlliflik*: Hər hansı bir tədqiqatda (tədqiqatın planlaşdırılmasında, verilənlərin toplanmasında, qiymətləndirilməsində, əsərin hazırlanması və nəşrində) aktiv iştirak etmədən qəsdən müəllif kimi görünmək / göstərilməkdir; aktiv iştirakı olmadığı halda nüfuzundan istifadə edərək adını müəlliflər sırasına daxil etdirməkdir.

*Müəllifi gizlətmə*: Hər hansı bir müəllifin tədqiqatda xidməti olduğu halda müəlliflər sırasında adını yazmamaqdır.

***Məlumatlandırmadan icazə alma***: Tədqiqatda iştirak etmək istəyən könüllülərdən, tədqiqatın tətbiqi mərhələləri, ehtimal olunan nəticələri, risqləri və tədqiqatda iştirakdan imtina hüquqları haqqında müvafiq şəkildə məlumatlandırma verilmədən icazə almaqdır.

***Könüllü iştirak prinsipinin pozulması***: Təhsilalan və ya digər iştirakçı qrupları tədqiqatda iştirak etməyə məcbur etməkdir.

***Gizlilik prinsipinin pozulması***: İştirakçılardan əldə edilən fərdi və ya təşkilati verilənləri, qanuni məcburiyyət olmadan və ya müvafiq şəxslərdən icazə almadan yaymaq, tədqiqatda iştirak edən iştirakçıların kimliklərini gizli saxlamamaqdır.

### 1.2. Əsas dəyərlər

***Akademik azadlıq***: UNEC əməkdaşları tədqiqat, tədris və sosial xidmət fəaliyyətində elmi prinsiplərə sadiqdirlər.

***Akademik etika***: UNEC əməkdaşları bütün fəaliyyətində akademik etikanı qoruyur və müəlliflik hüquqlarına hörmətlə yanaşır.

***Layiqlilik***: UNEC əməkdaşları akademik və inzibati vəzifələrin tutulmasında hər kəs üçün bərabər imkanlar yaradır və daha layiq olana üstünlük verir.

***Şəffaflıq***: UNEC əməkdaşları fəaliyyətini bütün maraqlı tərəflərin müşahidəsinə açıq şəkildə həyata keçirir.

***Mükəmməllik***: UNEC əməkdaşları bütün fəaliyyətində daim mükəmməl olanı əldə etməyə çalışır.

***Keyfiyyətlilik***: UNEC əməkdaşları bütün fəaliyyətində yüksək keyfiyyət prinsipinə sadiq qalır.

***İştirakçılıq***: UNEC əməkdaşları səmərəli idarəetmə naminə idarəetmənin bütün mərhələlərində aktiv iştirakçılığı təmin edir.

***Fərqliliklərə hörmət***: UNEC əməkdaşları bütün maraqlı tərəflərin fərqli fikirlərinə hörmətlə yanaşır.

***Cəmiyyət mənafeyini düşünmək***: UNEC əməkdaşları bütün fəaliyyətini ilk növbədə cəmiyyət mənafeyini düşünərək həyata keçirir.

***Ekologiyaya həssaslıq***: UNEC əməkdaşları dayanıqlı inkişaf naminə ekoloji tarazlığın qorunmasına səy göstərir.

## İKİNCİ HİSSƏ
## ƏMƏKDAŞLARIN ƏSAS ETİK DAVRANIŞ PRİNSİPLƏRİ

### 2.1. Əməkdaşların həmkarlarına münasibətdə gözləməli olduğu etik prinsiplər

a) İstər akademik, istərsə də inzibati statusda olsunlar, həmkarlarına qarşı ədalətlə və hörmətlə davranmaq;
b) Həmkarlarının akademik hüquq və azadlıqlarını müdafiə etmək;
c) Həmkarlarının fəaliyyəti haqqında peşəkar fikirlərini və qiymətləndirmələrini təqdim edərkən ədalətli, obyektiv və bitərəf olmaq; həmkarları haqqında bilərəkdən yalnış və bəd niyyətli açıqlamalar verməmək;
d) Qanunvericiliklə zəruri olmadığı halda həmkarları haqqında əldə etdikləri gizli və ya fərdi məlumatları açıqlamamaq;
e) Həmkarlarının peşəkar inkişafına kömək etmək;
f) Həmkarlarına qarşı irq, dil, din, yaş, cins, etnik mənsubiyyət, fiziki qüsur kimi səbəblər və ya siyasi, ixtiyari və fərdi səbəblərlə ayrı-seçkilik etməmək;
g) Həmkarlarının vəzifədən irəli gələn hüquq və səlahiyyətlərindən istifadə etmələrinə və vəzifələrini yerinə yertirmələrinə ixtiyari səbəblərdən mane olmamaq;
h) Həmkarlarının vəzifə qərarlarına təsir göstərmək üçün təzyiq və ya məcburetmə üsullarından istifadə etməmək.

### 2.2. Professor-müəllim heyətinin elm sahələrinə münasibətdə gözləməli olduğu etik prinsiplər

a) Mənsub olduqları elm sahəsi üzrə özlərini fasizləsiz olaraq inkişaf etdirmək;
b) Bütün elmi fəaliyyətlərində akademik dürüstlüklərini qorumaq;

c) Digər elm sahələrini ləkələməmək, onları əhəmiyyətsiz göstərməmək;

d) Peşələri ilə bağlı vəzifələrə müraciətlərdə yanıldıcı açıqlamalar və peşə keyfiyyətləri ilə bağlı yalnış məlumatlar verməmək və ya yetərlilikləri və keyfiyyətləri ilə bağlı həqiqətləri qəsdən gizlətməmək;

e) Peşə qərarını və davranışını dəyişdirəcək və ya ona təsir edəcək hər hansı bir mükafatı, hədiyyəni və ya ianəni qəbul etməmək. UNEC-də işləmələri səbəbi ilə birbaşa və ya dolayı olaraq verilən hədiyyələri qəbul edə bilməzlər və işgüzar münasibətlərdə olduqları şəxslərdən və ya firmalardan borc ala bilməzlər;

f) İxtisas sahələrinə aid olmayan mövzualarda resenzentlik, layihə tədqiqatçılığı, ekspertlik; imtahan, dissertasiya, vəzifəyə qəbul və vəzifədə yüksəltmə komissiyalarında üzvlük etməmək;

g) "Maraq birliyi" və ya "maraq toqquşması" olduğu fərdlərlə bağlı vəzifəyə təyin etmə, vəzifədə yüksəltmə və qiymətləndirmə komissiyalarında üzvlük etməmək, resenzentlik etməmək, ekspertlik vəzifəsini qəbul etməmək.

### 2.3. Əməkdaşların UNEC-ə münasibətdə gözləməli olduğu etik prinsiplər

a) Universitet daxilində müxtəlif səviyyəli komitə, komissiya, işçi qrupu, şura və ya digər çərçivələrdə idarəetmə fəaliyyətinə qoşulmaq;

b) Universitetdən kənarda universitetdəki vəzifə və öhdəlikləri ilə ziddiyyət təşkil edən peşəkar fəaliyyətlərlə məşğul olmamaq;

c) Universitet üzvlərinə qarşı hörmətlə və ədalətlə davranmaq, onlardan fərdi maraqları və şəxsi işləri üçün istifadə etməmək, sözlə və ya fiziki şəkildə onların ləyaqətini alçaltmağa çalışmamaq;

d) Universitetin resurslarını dürüst və məqsədinə uyğun şəkildə istifadə etmək;

e) Təşkilati və peşə statusundan fərdi maraqlarını təmin etmək məqsədilə istifadə etməmək;

f) Universitetdəki fəaliyyəti çərçivəsində ortaya çıxan hər növ ixtira, faydalı model, sənaye layihəsi, proqram, marka və bununla məhdudlaşmayan digər intellektual mülkiyyət predmeti olan məhsulların qiymətləndirilməsinin və onlardan irəli gələn maddi hüquqların bölüşdürülməsinin müvafiq qanunvericilik aktlarına görə tənzimlənməsini qəbul etmək.

**2.4. Professor-müəllim heyətinin cəmiyyətə münasibətdə gözləməli olduğu etik prinsiplər**

a) Cəmiyyətin iqtisadi, sosial, mədəni və intellektual potensialının inkişafında, cəmiyyətə xidmətdə aktiv rol oynamğa çalışmaq;
b) Cəmiyyət qarşısındakı açıqlamalarında elmi nəticələr ilə şəxsi baxışlarını bir-birindən ayrımaq;
c) Hər hansı bir inzibati məsələ ilə bağlı fikir bildirdikdə, şəxsi baxışları ilə universitetin mövqeyini bir-birindən ayrımaqda diqqətli davranmaq;
d) Ölkənin elmi, mədəni, sosial və iqtisadi baxımdan inkişafı ilə bağlı problemlərini tədris və tədqiqat predmetinə çevrimək, nəticələrini cəmiyyətin xeyrinə təqdim etmək, fikir və tövsiyələrini cəmiyyətlə bölüşmək;
e) Cəmiyyətin bütün üzvlərinin əsas hüquq və azadlıqlarını qorumaq və dəstəkləmək;
f) İnsan hüquqları ilə yanaşı, insan üzərində və ya başqa canlılar üzərində keçirilən təcrübə və ya sınaq iştirakçılarının da hüquq və rifahlarını qorumaq.

## ÜÇÜNCÜ HİSSƏ
## ELMİ FƏALİYYƏT ETİKASI

**3.1. Elmi tədqiqat və nəşretmə fəaliyyətində gözlənilməli olan etik prinsiplər**

a) UNEC-də və ya UNEC vasitəsilə həyata keçirilən insan və / və ya digər canlı bir eksperimentin iştirakı ilə reallaşdırılan labaratoriya tədqiqatlarını əhatə edən tədris, tələbə layihələri və tədris məqsədi daşıyan bütün növ fəaliyyətlərin müvafiq qanunvericiliyə uyğunluğunu təmin etmək;
b) Tədqiqatın layihələndirilməsi və həyata keçirilməsində yetərliliyə malik olmaq, tədqiqatın aparılması və nəticələrin təhlili mərhələsində özünütənqidi, dürüstlüyü və şəffaflığı qorumaq, eyni zamanda müvafiq mövzuda tədqiqat aparmış və ya aparmaqda olanların tədqiqatlarına hörmətlə yanaşmaq;

c) Tədqiqat mövzusuna dürüst və bitərəf yanaşmaq, tədqiqat nəticələrini yazarkən açıq və dürüst davranmaq, tədqiqatda iştirak edən hər kəsin töhfəsinin görünməsini və bilinməsini təmin etmək;

d) Elmi tədqiqatın, tədqiqat metdodologiyası və tədqiqat etikasına uyğun olması üçün tədqiqata başlayarkən tədqiqat prosesindəki vəzifələri və nəşrlərdə formalaşan bütün hüquqların bölüşdürülməsini müəyyən etmək;

e) Verilənlərin toplanması və təhlili üçün istifadə edilən bütün mənbə (elektron olanlar da daxil olmaqla) və metodları tədqiqatda təqdim etmək;

f) Elmi nəşr əsərlərində əsərin daxilindəki biliklərin düzgün və tam olmasının, əsərin qəsdən yetərsiz bilik daşımamasının əsas qayda olduğunu qəbul etmək; biliklərin istehsalı və təkmilləşdirilməsi mərhələlərində elmi etikaya uyğun davranmaq, yalnız elmi sistem çərçivəsində inkişaf etdirilən və toplanan bilikləri və verilənləri nəşr etdirmək;

g) Elmi nəşr əsərinin məzmununun bitərəf olmasına diqqət yetirmək; şəxsi maraqların, biznes maraqlarının, siyasi fikirlərin diqtə edilməsi məqsədilə və ya oxşar səbəblərlə tədqiqat nəticələrini dəyişdirərək nəşr etdirməmək;

h) Elmi nəşr əsərində istifadə edilən bütün mənbələri istinad edərək göstərmək, əsərdəki biliyin istehsalında, toplanmasında, ölçülməsində və nəşrə hazırlanmasında payı olanları töhfələrinə görə müəllif kimi və ya təşəkkür edərək qeyd etmək;

i) Tədqiqatda və nəşr əsərində iştirak və məsuliyyət anlamı daşıyan müəlliflik hüququnu bütün elmi tədqiqatlarda gözləmək; tədqiqata verilən töhfə nisbətində müəlliflərin adlarının sıralamasını aparmaq;

j) Ən pis qeyri-etik hərəkət kimi qəbul edilən "başqasına aid əlyazma, çap və elektron şəklində bir əsəri olduğu kimi götürərək öz adından təqdim etmək və ya bir hissəsini elmi nəşretmə qaydalarına uyğun formada istinad etməyərək öz əsəri kimi qələmə vermək; nəticələri, bunların sitat olduğunu açıq şəkildə (yazı tipini dəyişdirərək, kursivlə yazaraq, dırnaq daxilində göstərərək, mətn daxilində işarələyərək, istinadlarda və ya ədəbiyyat siyahısnda göstərərək) göstərmədən təqdim etmək; bilik və düşüncələri öz fikri kimi təqdim etmək" cəhdlərindən qəti olaraq çəkinmək;

k) İstinad etdikdə yetərsiz məlumat verməmək, sitatın mənbəyi haqqında adekvat olmayan məlumat verməmək, mənbəyi unudulan verilənləri öz fikri kimi göstərməmək;

l) Tədqiqatda istifadə edilən verilənləri və təhlilləri özündə ehtiva edən məlumat bazasını ən azı 5 il qoruyub saxlamaq.

**3.2. Elmi qiymətləndirmə fəaliyyətində gözlənilməli olan etik prinsiplər**

a) Elmi qiymətləndirmə və münsiflər heyəti üzvlüyü, redaktorluq, ekspertlik, resenzentlik və digər oxşar vəzifələri həyata keçirərkən müstəqil, dürüst, qərəzsiz və bitərəf davranmaq;
b) Gizlilik prinsipinə riayət etmək;
c) Elmi qiymətləndirmələrdə açıq və şəffaf olmaq və əsaslandırma prinsipini gözləmək;
d) Qiymətləndirmə qrafiki və müddətinə riayət etmək; qiymətləndirməni həyata keçirərkən konstruktiv təklif və tövsiyələr vermək, əsər müəllifini alçaldıcı ifadələrdən çəkinmək;
e) Resenzentliyini etdiyi elmi əsərdən fikir oğurluğu etməklə vəzifəsindən sui-istifadə etməmək;
f) Resenzent müəyyən edərkən elmi kriteriyalardan kənara çıxmamaq;
g) Aralarında "maraq birliyi" və ya "maraq toqquşması" olan şəxslərlə bağlı elmi əsərlərin qiymətləndirmə heyətində resenzent kimi vəzifə tutmamaq.

## DÖRDÜNCÜ HİSSƏ
## TƏHSİL VƏ TƏDRİS ETİKASI

**4.1. Professor-müəllim heyətinin təhsil və tədrislə bağlı gözləməli olduğu etik prinsiplər**

a) Dərslərini, səlahiyyətli strukturların təsdiq etdiyi proqramın məzmununa uyğun olaraq tədris etmək;
b) Təhsilalanların dərslərdən aldqıları qiymətləndirmələri və qiymətləri məhkəmə qərarı və təhsilalanın yazılı icazəsi olmadan üçüncü şəxslərə açıqlamamaq;
c) Prinsip etibarilə dərs cədvəlində müəyyən edilən məkan və zamanda dərslərdə olmaq, üzürlü hallar istisna olmaqla dərslərini başqalarına əvəzlətdirməmək;

d) Tədris etdiyi bütün dərslər üçün yazılı işçi tədris planı (sillabus) hazırlamaq və bu işçi tədris planını (sillabusu) bütün təhsilalanların əldə etməsinə şərait yaratmaq;
e) Fiziki qüsuru olan təhsilalanlara müvafiq qanunvericiliyin tələblərinə uyğun dəstək vermək və kömək etmək.

**4.2. Professor-müəllim heyətinin təhsilalanlara münasibətdə gözləməli olduğu etik prinsiplər**

a) Təhsilalanları tədqiqata, sorğu-suala və öyrənməyə təşviqedici və cəsarətləndirici mühiti hazırlamaq;
b) Təhsilalanları peşənin və ya elm sahəsinin əsas dəyər və prinsiplərini öyrənməyə, fikirlərini sərbəst şəkildə ifadə etməyə və müstəqil düşünməyə təşviq etmək;
c) Təhsilalanların fəaliyyətlərini və məhsuldarlıqlarını ədalətli, obyektiv və dürüst şəkildə qiymətləndirmək, qiymətləndirmələri ilə təhsilalanların öyrənmələrinə töhfə vermək, onların fəaliyyətinə vaxtında və konstruktiv reaksiyalar göstərmək;
d) Təhsilalanların fəaliyyətini və imtahanlarını vaxtında qiymətləndirmək və elan etmək;
e) Təhsilalanların öyrənmə azadlığını qorumaq, onların öyrənmə hüquqlarına zərər vuracaq təcrübələrə icazə verməmək;
f) Təhsilalanların dərslərlə bağlı rəylərinə diqqət yetirmək;
g) Qanunvericiliklə açıqlanması məcburi olanlar istisna olmaqla, təhsilalanların şəxsi məlumatlarına hörmətlə yanaşmaq, bu məlumatları gizli saxlamaq;
h) Şəxsi maraqları üçün təhsilalanları istismar etməmək;
i) Təhsilalanlara tövsiyə məktubu və ya rəy verərkən ədalətli və obyektiv davranmaq;
j) Təhsilalanlarla arasında peşəkarlıq sərhəddlərini aşacaq ölçüdə şəxsi yaxınlığa və münasibətlərə icazə verməmək, bütün tələbələrə qarşı bərabər davranmaq;
k) Hər növ sui-istifadə, istismar və zorakılığı, təzyiqedici, alçaldıcı, narahatedici davranışları heç bir formada qəbul etməmək, onlara göz yummamaq və buna uyğun hərəkət etmək;
l) Tədris etdiyi sahədə təhsilalanların aktual və keyfiyyətli təhsil ala bilməsi üçün tədqiqatlar apararaq peşəkarlıq səviyyəsini fasiləsiz şəkildə yüksəltmək;

m) Təhsilalanların müxtəlif bacarıqlara və xüsusiyyətlərə malik olduqlarını qəbul etmək və hər bir təhsilalanın intellektual və fərdi inkişafına xidmət etməyə çalışmaq;
n) Təhsilalanların yüksək peşə etikası dəyərlərinə sahib olmaları və çoxtərəfli inkişafları üçün davranışları ilə nümunə olmaq;
o) Təhsilalanların bir-birinə və professor-müəllim heyətinə qarşı hörmət göstərmələrini təşviq etmək;
p) Təhsilalanları, öyrənmələrinə mane və ya sağlamlıqlarına və təhlükəsizliklərinə zərərli olacaq mühitlərdən qorumağa diqqət etmək;
q) Təhsilalanlardan hər hansı bir hədiyyə qəbul etməmək;
r) Təhsilalanları öz kitabını və ya oxşar yazılı və ya görüntülü tədqiqatını satın almağa məcbur etməmək; bu məqsədlə dissertasiyanı və qiyməti təzyiq vasitəsi kimi istifadə etməmək.

## BEŞİNCİ HİSSƏ
## XİDMƏT ETİKASI

### 5.1. Əməkdaşların xidmət göstərərkən gözləməli olduğu etik dəyərlər və prinsiplər

a) Cəmiyyətə xidmət çərçivəsindəki fəaliyyət və əməliyyatlarda hüquqa hörmət, qanunilik, ədalətlilik, bərabərlik, dürüstlük, şəffaflıq və hesabatlılıq prinsipləri əsasında hərəkət etmək, vəzifəsini yerinə yetirərkən və xidmətləri göstərərkən dil, din, dünyagörüşü, siyasi düşüncə, irq, yaş, cinsiyyət və oxşar səbəblərlə ayrı-seçkilik etməmək, insan hüquq və azadlıqlarına zidd və ya onları məhdudlaşdırıcı və imkan bərabərliyinə mane olan davranış və səylər göstərməmək;
b) İctimai məsələlərə (ətraf mühit, sağlamlıq, təhsil, ədalət və.s) həssaslıq göstərərək insanlığın faydasını qorumaq;
c) Universitetdən kənarda hər hansı bir tədbirdə iştirak etmək naminə universitet qarşısındakı öhdəliklərini pozmamaq;
d) Universitetdən kənarda həyata keçirdiyi gəlir gətirən işləri, qanunvericiliyə və dürüstlük prinsipinə uyğun təşkil etmək;
e) Kommersiya xarakterli reklamlara alət olmaqdan uzaq durmaq;

f) Universitetdən kənardakı tədbirlərdə universitetin və peşəsinin cəmiyyət içindəki yerini və hörmətini qorumaq;
g) Dürüstlüyünü və obyektivliyini təhlükəyə salacaq tədbirlərdən uzaq olmaq;
h) Xidmətləri müəyyən edilən standartlara və proseslərə uyğun şəkildə həyata keçirmək, xidmətdən istifadə edənlərə iş və əməliyyatlar haqqında zəruri açıqlamaları edərək onları xidmət prosesi boyunca maarifləndirmək;
i) İxtiyari davranışlara, təzyiq, təhqir və təhdidedici tədbirlərə əl atmamaq, açıq və qəti sübutlara əsaslanan hesabatlar hazırlamaq, qanunvericiliyə zidd olaraq özləri üçün xidmət, imkan və ya oxşar üstünlüklər tələb etməmək;
j) Etik prinsiplərə zidd olan və ya qanunsuz iş və fəaliyyətlərdə iştirakının tələb edilməsi halında və ya xidmətləri həyata keçirərkən bu cür bir fəaliyyət və ya əməliyyatdan xəbərdar olduqda ya da onu gördükdə vəziyyəti səlahiyyətli şəxslərə bildirmək;
k) "Maraq birliyi" və "maraq toqquşması" məsələsində diqqətli davranmaq;
l) Vəzifəsindən, statusundan və səlahiyyətindən istifadə edərək özü, yaxınları və ya üçüncü şəxslər lehinə maddi və ya mənəvi üstünlük yaradacaq davranışlardan çəkinmək;
m) Əməkdaşlar UNEC-də işlədiklərinə görə birbaşa və ya dolayı olaraq verilən hədiyyələri qəbul edə bilməz, maddi və ya mənəvi heç bir üstünlük qazana bilməz və peşəkar əlaqədə olduğu fərd və ya firmalardan borc qəbul edə bilməzlər.

## ALTINCI HİSSƏ
## AKADEMİK İDARƏETMƏ ETİKASI

### 6.1. Rəhbər əməkdaşların gözləməli olduğu etik dəyərlər və prinsiplər

a) Universitet üzvlərinin şəxsi ləyaqətini və peşəkar nüfuzunu qorumaq;
b) Universitet üzvləri arasında dil, irq, rəng, cinsiyyət, xarici görünüş, siyasi düşüncə, fəlsəfi inanc, din, məzhəb və oxşar səbəblərlə ayrı-seçkilik etməmək;
c) Akademik muxtariyyətin reallaşması üçün çalışmaq; akademik azadlığı, müxtəlif düşüncə və fikirlərin bir yerdə yaşaya bilməsini universitet həyatının əsas dəyəri kimi qəbul etmək;
d) Professor-müəllim heyətinin vəzifəyə təyin və vəzifədə yüksəlmə ilə bağlı müraciətlərinin qiymətləndirilməsində qəbul edilmiş akadmeik kriteriyaları əsas götürmək;

e) Rəhbərlik etdiyi əməkdaşlarla arasında peşəkarlıq sərhəddlərini aşacaq səviyyədə şəxsi yaxınlıq və münasibətlərə icazə verməmək, rəhbərlik etdiyi bütün əməkdaşalara bərabər davranmaq;

f) Universitetə işə qəbulda, vəzifəyə təyin və yüksəltmədə elmi standartlardan kənara çıxmamaq;

g) Sui-istifadə, bezdirmə və psixioloji zorakılıq (mobbinq) kimi qeyri-etik davranışlara imkan verməmək məqsədilə hər cür təlim, maarifləndirmə, məlumatlandırma üçün zəruri tədbirləri görmək; bu şəkildə davranışlara məruz qalanların hüquqlarını qorumaq;

h) Cinsi sataşmanı qanunların müəyyən etdiyi dar çərçivədə deyil, etik kriteriyalar çərçivəsində qiymətləndirmək. Cinsi sataşma və bu məqsədlə güc və nüfuzdan istifadə halında sataşmaya məruz qalan təhsilverənin, təhsilalanın və inzibati işçinin müraciətlərində gizlilik prinsipini qorumaq;

i) Professor-müəllim heyətinin ölkədaxili və ölkəxarici elmi fəaliyyətlərdə iştirakında və bu məqsədlə müvafiq dəstəyin verilməsində ədalət və layiqlilik prinsiplərinə görə davranmaq;

j) Əməkdaşların əmək hüquqlarını məhdudlaşdırıcı, karyeralarına zərərverici hərəkətlərdən uzaq durmaq;

k) Professor-müəllim heyətinin elmi tədqiqat və əsər nəşrindən irəli gələn qanuni hüquqlarının qorunmasını gözləmək;

l) Professor-müəllim heyətinin dərs yüklərinin onların ixtisaslaşma sahəsi və bacarıqlarını nəzərə alaraq ədalətlilik çərçivəsində bölüşdürülməsini təmin etmək;

m) Universitet resurslarından istifadədə və işlərin icrasında şəffaf və hesabatlı şəkildə davranmaq;

n) Universitetlə işgüzar əlaqədə olan fərdlər və təşkilatlarla şəxsi maraq daşıyan əlaqələr qurmamaq;

o) Etika və ya intizam komissiyalarının müstəqil şəkildə fəaliyyət göstərməsi üçün zəruri şəraiti təmin etmək, onların qərarlarını ədalətliliklə həyata keçirmək, qeyri-etik yanaşma və davranışlara göz yummamaq;

p) Siyasi təşkilatlar və digər vətəndaş cəmiyyəti təşkilatları ilə münasibətlərdə bitərəflik prinsipinə riayət etmək.